# "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 23-24, maddə 685; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddə 501, № 6 (I kitab), maddə 631) aşağıdakı dəyişikliklər edilsin:

1. 6-cı maddə üzrə:

1.1. birinci hissənin 5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və ya bələdiyyə orqanı tərəfindən yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alındıqda, yaşayış sahəsi ilə təmin olunmaq.";

1.2. ikinci hissədə "Qanunun 12-ci maddəsinin 7-ci hissəsində və 14-cü maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş müavinətlərin" sözləri "maddənin birinci hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş ildə bir dəfə müalicə olunmaq üçün müavinətin" sözləri ilə əvəz edilsin.

2. 7-ci maddənin birinci hissəsi üzrə:

2.1. birinci abzasda "6-cı maddənin" sözləri "bu Qanunun 6-cı maddəsinin" sözləri ilə əvəz edilsin;

2.2. 3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və ya bələdiyyə orqanı tərəfindən yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alındıqda, yaşayış sahəsi ilə təmin olunmaq.".

3. 9-cu maddənin birinci hissəsinin birinci abzasında "6-cı maddənin" sözləri "bu Qanunun 6-cı maddəsinin" sözləri ilə əvəz edilsin.

4. III bölmə ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2025-ci il*

---

Azərbaycan.- 2025.- 18 aprel (№ 76).- S.3.